**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Əhali və gender statistikası şöbəsi**


# ƏHALİNİN SAYININ HESABLANMASINA DAİR KEYFİYYƏT MƏRUZƏSİ

**26.04.2013**


Azərbaycan Respublikası, Bakı şəhəri, İnşaatçılar prospekti 136
rza@azstat.org, + 994 12 538 41 53

# Mündəricat


1. Statistik prosesə və məhsullara giriş...................................................... 3

2. Aktuallıq.................................................................................................. 5

3. Dəqiqlik.................................................................................................... 7

4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə................................ 8

5. Bərabər giriş və aydınlıq........................................................................... 10

6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik............................................... 12

7. Çıxış keyfiyyət komponentləri arasında seçim........................................... 13

8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi.................. 13

9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük....................................... 14

10. Məxfilik, şəffaflıq və təhlükəsizlik............................................................ 14

11. Yekun........................................................................................................ 14

## 1. Statistik prosesə və məhsullara giriş

***Əhali statistikasının qısa təsviri***

Əhali və gender statistikası şöbəsi əhalinin sayı, doğum, ölüm, nikah, boşanma, immiqrantlar, emiqrantlar, qaçqın və məcburi köçkünlər haqqında bir çox göstəricilər üzrə statistika aparır.

Əhalinin sayının cari hesablanması əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır. Hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşmələr aparılır.

***Əhali statistikası üzrə əlaqəli statistik göstəricilərin xülasəsi***

**a. Əhali**

- Şəhər və kənd bölgüsündə cins və yaş qrupları üzrə əhalinin sayı;
- Şəhər və kənd bölgüsündə cins və yaş qrupları üzrə əhalinin orta illik sayı;
- Əhalinin şəhər yerləri üzrə qruplaşdırılması;
- Əhalinin kənd yaşayış yerləri üzrə qruplaşdırılması;
- Əhalinin yaş qrupları üzrə xüsusi çəkisi;
- Əhalinin ümumi artımı;
- Əhalinin sayının dəyişməsi;
- Hər 1000 kişiyə düşən qadınların sayı;
- Əhalinin milli tərkibi (siyahıyaalmalar üzrə);
- Əhalinin ana dili və sərbəst danışdığı dil (siyahıyaalmalar üzrə);
- Əhalinin təhsil səviyyəsi;
- 15 və yuxarı yaşda olan əhalinin savadlılıq səviyyəsi;
- Doğulanlar, ölənlər, təbii artım;
- Şəhər və kənd yerləri üzrə nəsilvermə əmsalı;
- Şəhər və kənd bölgüsündə cins və yaş qrupları üzrə nikah və boşanmalar.

**b. Doğum**

- Şəhər və kənd bölgüsündə cins və yaş qrupları üzrə doğulanların sayı;
- Ananın yaşına görə diri doğulanların sayı;
- Doğumun yaş əmsalları;
- Ananın yaşı və doğum ardıcıllığına görə diri doğulanların sayı;
- Rəsmi qeydə alınmış nikahda olan analar tərəfindən doğulan uşaqlar;
- Rəsmi qeydə alınmamış nikahda olan analar tərəfindən doğulan uşaqlar;
- Şəhər və kənd yerləri üzrə doğum zamanı ananın orta yaşı;
- Ananın nikah vəziyyətinə görə diri doğulan uşaqların sayı;
- Təkrar istehsalın ümumi əmsalı (brutto-təkrar istehsal əmsalı);
- Təkrar istehsalın ümumi əmsalı (netto-təkrar istehsal əmsalı);
- Ümumi nəsilvermə (fertillik) əmsalı;
- Təbii nəsilvermə əmsalı;
- Doğulanda gözlənilən ömür uzunluğu.

**c. Ölüm**

- Şəhər və kənd bölgüsündə cins və yaş üzrə ölənlər;
- Şəhər və kənd bölgüsündə cins və yaş üzrə ölümün ümumi əmsalı;
- Şəhər və kənd bölgüsündə cins üzrə 1 yaşadək körpə ölümü;
- Şəhər və kənd bölgüsündə cins üzrə 5 yaşadək körpə ölümü;
- Ölümün səbəbləri;
- Ölümün səbəblərinə görə ölüm əmsalları;
- Ölümün ümumi əmsalı;
- Ölümün yaş əmsalları;
- Ölüdoğulma;
- Perinatal ölüm.

**d. Nikah**

- Şəhər və kənd bölgüsündə cins və yaş üzrə nikahların sayı;
- Cins və yaş üzrə nikaha da daxil olanların orta yaşı;
- Cins üzrə 1-ci nikaha daxil olanların orta yaşı;
- Yaş qrupları üzrə bəy və gəlinin yaşına görə nikahların sayı;
- Şəhər və kənd bölgüsündə əhalinin hər 1000 nəfərinə nikahların sayı.

**e. Boşanma**

- Şəhər və kənd bölgüsündə cins və yaş üzrə boşanmaların sayı;
- Boşanmanın ümumi əmsalı;
- Şəhər və kənd bölgüsündə əhalinin hər 1000 nəfərinə boşanmaların sayı;
- Cins və yaş üzrə nikahın davametmə müddətinə görə boşanmaların sayı.

**f. Miqrasiya**

- Cins və yaş bölgüsündə ölkəyə daimi yaşamaq üçün gələnlərin (imiqrantlar) sayı (ölkələr üzrə);
- Cins və yaş bölgüsündə ölkədən daimi yaşamaq üçün gedənlərin (emiqrantlar) sayı (ölkələr üzrə);
- Şəhər və kənd yerləri üzrə miqrasiya artımı.

**g. Qaçqın və məcburi köçkünlər**

- Gəldiyi ölkələr bölgüsündə qaçqın ailələrin və şəxslərin sayı;
- Rayonlar və yaşayış məntəqələri bölgüsündə məcburi köçürülən ailələr və şəxslərin sayı
- Cins və yaş bölgüsündə qaçqın və məcburi köçkünlərin sayı;
- Milli tərkib, təhsil səviyyəsi və peşə tərkibi üzrə qaçqın və məcburi köçkünlərin sayı;
- Yaşamaq üçün vəsait mənbəyi üzrə qaçqın və məcburi köçkünlərin sayı;
- Məcburi köçkünlərin dislokasiyası;
- Qaçqın və məcburi köçkünlərin miqrasiyası.

Əhali və gender statistikası üzrə əldə olunan bütün məlumatlar beynəlxalq standartlara və tövsiyələrə uyğun olaraq hazırlanmış milli metodologiya əsasında hesablanır.

## 2. Aktuallıq

Əhalinin sayının hesablanması Birləşmiş Millətlər Təşkilatının "Əhalinin təbii və miqrasiya hərəkətinin statistika qeydiyyatı sistemi üçün prinsipləri və tövsiyələri"nə uyğun həyata keçirilir. Yəni doğum, ölüm və əhalinin ölkədaxili və ölkəxarici

miqrasiyası əsasında hesablanır. Bu göstəriciləri nəzərə alaraq əhalinin sayı aşağıdakı kimi proqnozlaşdırılır.

$$Əh_2=Əh_1 + D-Ö-M$$

Burada $Əh_2$ -ilin sonuna əhalinin sayı,
$Əh_1$ -ilin əvvəlinə əhalinin sayı,
D - doğulanların sayı,
Ö -ölənlərin sayı,
M - ölkə xarici miqrasiyasını göstərir.

Əhali haqqında məlumatların əldə edilməsi üçün ilk mənbə əhalinin siyahıyaalmalarıdır. Əhalinin sayının cari hesablanması əhalinin son siyahıyaalınmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşmələr aparılır. Yaşayış yerlərinə görə əhali şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.
Doğulanların sayı - Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum haqqında müvafiq aktlarda olan məlumatların statistik təhlili əsasında hazırlanır.
Ölənlərin sayı - Ədliyyə Nazirliyinin Qeydiyyat Şöbələrində qeydə alınmış ölənlərin mütləq sayıdır.
Gələnlərin sayı - gələnlərin, yəni müvafiq əraziyə onun sərhədlərindən kənarda yerləşən ərazilərdən gələn şəxslərin mütləq sayıdır. Bu göstərici müəyyən vaxt hüdudunda miqrasiyanın həcmini səciyyələndirən göstəricilərdən biridir. Əhali yaşayış yerində (gəldiyi yerdə) qeydiyyata alınarkən daxili işlər orqanları tərəfindən tərtib edilən gəlmənin statistik uçot talonlarının tədqiqi nəticəsində müəyyənləşdirilir.
Gedənlərin sayı - gedənlərin, yəni müvafiq ərazidən onun sərhədlərindən kənarda yerləşən əraziyə çıxıb gedən şəxslərin mütləq sayıdır. Bu göstərici müəyyən vaxt hüdudunda miqrasiyanın həcmini səciyyələndirən göstəricilərdən biridir. Əhali yaşayış yerində qeydiyyatdan çıxarılarkən daxili işlər orqanları tərəfindən tərtib edilən getmə statistik uçot talonlarının tədqiqi nəticəsində müəyyənləşdirilir.

## 3. Dəqiqlik

### Əsas göstəricilər üçün təsadüfü və sistematik xətaların ümumi riski

Əhalinin sayının hesablanması və qarşıya qoyulan vəzifələrin keyfiyyətli həlli üçün, Əhali və gender statistikası şöbəsi ilk növbədə yerli statistika orqanlarından qəbul edilən ilkin məlumatların keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadi olaraq metodoloji işləri davam etdirir. Yerli statistika orqanlarının əməkdaşları mütəmadi olaraq seminarlarda iştirak edir və hər hansı metodoloji yeniliklər baş verərsə onlar operativ olaraq məlumatlandırılırlar.

Son vaxtlar dünya təcrübəsində əhalinin sayının proqnozlaşdırılması üçün müxtəlif iqtisadi-riyazi (statistik və imitasiya) modellərdən istifadə edilir. Yeni informasiya texnologiyasının yaradılması və proqram təminatının inkişafı iqtisadi, sosial-demoqrafik göstəricilərin modelləşdirilməsi və proqnozlaşdırılmasının daha da geniş istifadəsinə imkan verir. Hazırda bu modellərdən tətbiq edilənləri dinamika sıralarının avtoreqressiya, adaptiv və imitasiya modelləridir.

***Əhalinin siyahıyaalmasının impyutasiyası, şərti qiymətləndirilməsi, məlumatların işlənməsi və mətn məlumatlarının kodlaşdırılması***

Əhali haqqında məlumatların əldə edilməsi üçün ilk mənbə 10 ildən bir keçirilən əhalinin siyahıyaalınmasıdır və Azərbaycanda son dəfə əhalinin siyahıyaalması 2009-cu ildə keçirilmişdir Əhalinin siyahıyaalması üzrə məlumatların bir çoxu əvvəlcədən kodlaşdırılmışdır, yəni hər suala verilmiş cavabların bütün variantlarına əvvəlcədən müəyyənləşdirilmiş kod veriləcək və kodlar kompüterə daxil ediləcəkdir. Məsələn, iş yerinin adına əsasən şəxsin məşğul olduğu iqtisadiyyatın sahəsi müəyyənləşdirilərək ona kod veriləcəkdir. Cavab variantlarının daha çox olduğu, yaxud cavabların müxtəlif variantları bir neçə qrupda birləşdirilməli olan (məsələn, konkret məşğuliyyət-məşğulluq qrupu) əlamətlər üzrə kodlaşdırma üçün xüsusi lüğətlər tərtib edilmişdir.

Siyahıyaalma proqramının suallarına cavabların hamısını kodlaşdırmaq tələb olunmur, çünki siyahıyaalma zamanı bu cavablar kompüterin oxuya biləcəyi şəkildə yazılmışdır. Bunun üçün sayıcı karandaşla siyahıyaalma vərəqəsində cavabın lazımi variantına uyğun olan düzbucaqlını işarə etməlidir.

Kompüterdə kodlaşdırılmış məlumatlar yoxlanılır, ayrı-ayrı yaşayış məntəqələrindəki sakinlərin sayı hesablanır, onlar qeyd olunmuş əlamətlərə görə bölüşdürülərək və cədvəllər şəklində çap edilir.

Əhalinin müxtəlif əlamətlərə görə bölündüyü onlarca müxtəlif cədvəllər (siyahıyaalma materiallarının işlənməsi proqramı) tərtib edilir. Bu cədvəllərin hər biri, bir qayda olaraq, bütün şəhər və rayonlar üzrə hesablanır. Bundan əlavə, bəzi cədvəllər yalnız müəyyən ərazinin bütün sakinləri üzrə deyil, həm də onların ayrı-ayrı qrupları üzrə tərtib edilir. Məsələn, siyahıyaalma məlumatlarının, demək olar ki, hamısı kişilər və qadınlar üçün ayrıca, bundan başqa, şəhər əhalisi, kənd əhalisi və müəyyən ərazinin bütün əhalisi üçün ayrıca hesablanır. Beləliklə, siyahıyaalma nəticəsində geniş və böyük həcmdə informasiya alınır. Siyahıyaalmanın materialları əsasında alınmış hər cədvəldə onlarla göstəricilər olur. Siyahıyaalmanın yekunlarının hesablanması nəticəsində milyonlarla göstərici əldə edilir.

***D8. Dəqiqləşmələrin sayı*** *(2011-2013-cü illər üzrə).*

***Cədvəl № 1***

| Hesabat dövrü | 01.01.2011 | 01.01.2012 | 01.01.2013 |
|---|---|---|---|
| Əhalinin sayı üzrə ilkin məlumatlar (nəfər) | 9111023 | 9235037 | 9356459 |
| Əhalinin sayı üzrə yekun məlumatlar (nəfər) | 9111078 | 9235085 | 9356483 |
| İlkin və yekun məlumatlar arasındakı nisbət, % | 0,0006 | 0,0005 | 0,0003 |

## 4. Vaxtlı-vaxtında olma və tam vaxtında yerinə yetirmə

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin “Yerli statistika orqanları üçün statistik işlər proqramı”na əsasən ilin əvvəlinə əhalinin cari hesablanması üçün müvafiq hesabatlar Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri və nikah evləri tərəfindən yerli statistika orqanlarına, yerli statistika orqanları tərəfindən isə Baş Hesablama Mərkəzinə təqdim olunur. Əldə olunan ilkin məlumatlar dərhal təhlil olunur və bu təhlil əsasında yanvar ayının 14-dək ölkə üzrə əhalinin ilkin sayı əldə olunur.

### *V1. İlkin məlumatların alınması ilə ilk nəticələrin hazır olması arasında laq (vaxt)* *(2011-2013-cü illər üzrə)*

*Cədvəl № 2*

| **Hesabat dövrü** | **01.01.2011** | **01.01.2012** | **01.01.2013** |
|---|---|---|---|
| İlkin məlumatların Ədliyyə Nazirliyinin Qeydiyyat şöbələri və nikah evləri tərəfindən yerli statistika orqanlarına təqdim edilməsi | 06.01.2011 | 06.01.2012 | 08.01.2013 |
| İlkin məlumatların yerli statistika orqanlarından Baş Hesablama Mərkəzinə təqdim edilməsi | 10.01.2011 | 10.01.2012 | 10.01.2013 |
| İlin əvvəlinə əhalinin sayı haqqında ilkin məlumatların hazırlanması | 14.01.2011 | 13.01.2012 | 14.01.2013 |
| İnzibati və iqtisadi şəhər və rayonlar üzrə ilin əvvəlinə əhalinin sayı haqqında yekun məlumatların hazırlanması | 29.03.2011 | 29.03.2012 | 29.03.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 82 | 83 | 80 |
| Aralıq vaxt (laq), iş günü | 52 | 53 | 50 |

### *V2. Hesabat dövrünün sonu və son nəticələrin tarixi arasında aralıq vaxt* *(2011-2013-cü illər üzrə)*

*Cədvəl № 3*

| **Hesabat dövrü sonuncu günü** | **27.01.2011** | **27.01.2012** | **27.01.2013** |
|---|---|---|---|
| İllik yekun göstəricilərin tam hazır olma tarixi | 29.03.2011 | 29.03.2012 | 29.03.2013 |
| Son nəticələrin nəşr günü (bülletenin nəşr olunması) | 16.05.2011 | 16.05.2012 | 17.05.2013 |
| Aralıq vaxt (laq), təqvim günü | 47 gün | 47 gün | 69 gün |
| Aralıq vaxt (laq), iş günü | 30 gün | 30 gün | 30 gün |

### *V3. Nəşrin tam vaxtında yerinə yetirilməsi (2011-2013-cü illər üzrə)*

*Cədvəl № 4*

| **Hesabat dövrü** | **01.01.2011** | **01.01.2012** | **01.01.2013** |
|---|---|---|---|
| Elan edilmiş nəşr tarixi | 16.05.2011 | 16.05.2012 | 17.05.2013 |
| Faktiki nəşr tarixi | 16.05.2011 | 04.05.2012 | 14.05.2013[1)] |
| Aralıq vaxt (laq) | 0 | -12 | -3 |

[1)] *2013-cü il üçün "Azərbaycanın əhalisi" adlı statistik bülletenin nəşr olunması 14.05.2013-cü il tarixinə planlaşdırılır.*

## 5. Bərabər giriş və aydınlıq

Əhalinin cari hesablanması üzrə yekun məlumatlar hazırlandıqdan sonra istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə bir neçə yayım vasitəsindən istifadə olunur. Belə ki, yekun məlumatların hesablanması prosesi yekunlaşdıqdan sonra illik məlumatlar əks olunmuş ekspress-məlumatlar, press-relizlər, bülleten və məcmuələr Komitənin veb-səhifəsində əks olunur (http://www.stat.gov.az/source/demoqraphy/). İllik məlumatlar Komitənin veb-səhifəsindəki statistik məlumat bazası bölməsində də yerləşdirilir. http://www.azstat.org/MESearch/search?departament=21&lang=az.

Eyni zamanda göstəricilər və hesabat formalarına dair metaməlumatlar, həmçinin digər metodoloji izahlar da mövcuddur http://www.azstat.org/MetaDataG/.

Bundan əlavə Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və Müstəqil Dövlətlər Birliyinin (MDB) Statistika Komitəsinin xüsusi standartları üzrə sorğu kitabçaları və cədvəllər hazırlanır.

***Nəticələrin yayımlanması üçün istifadə olunan vasitələr***

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| 1 | Dövlət Statistika Komitəsinin veb-saytı | www.stat.gov.az |
| 2 | Ekspress məlumatlar, press-relizlər | www.stat.gov.az |
| 3 | Məlumat bazası | http://www.azstat.org/MESearch/search?departament=21&lang=az |
| 4 | Dövlət statistika orqanlarına göndərilən sorğulara cavablar | - |
| **Əhali və gender statistikası şöbəsi tərəfindən nəşr edilən statistik məcmuələr** | | |
| 5 | "Azərbaycanın demoqrafiq göstəriciləri" | http://www.stat.gov.az/source/demoqraphy/ |
| 6 | "Azərbaycanda uşaqlar" | http://www.stat.gov.az/source/demoqraphy/au/ |
| 7 | "Azərbaycan gəncləri" | http://www.stat.gov.az/source/demoqraphy/ay/ |
| 8 | "Azərbaycanda qadınlar və kişilər" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/Women-men.pdf |

| Sıra №-si | Vasitə | Əldə edilmə yeri |
|---|---|---|
| **Əhali və gender statistikası şöbəsi tərəfindən nəşr edilən statistik bülleten** | | |
| **9** | "Azərbaycanın əhalisi" | http://www.stat.gov.az/source/demoqraphy/ap/ |
| **Komitənin digər şöbələri tərəfindən nəşr edilən statistik məcmuələr** | | |
| **10** | "Azərbaycan rəqəmlərdə" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |
| **11** | "Azərbaycanın statistik göstəriciləri" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/SYA2012/ |
| **12** | "Azərbaycanın regionları" | http://www.stat.gov.az/source/regions/index.php |
| **Komitə tərəfində nəşr edilən buklet** | | |
| **13** | "Azərbaycan faktlar və rəqəmlər" | http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ |

***BA1. Kağız məruzələr üçün abunələrin və sifarişlərin sayı***

Əhali haqqında məlumatlar kağız formasında Əhali və gender statistikası şöbəsi tərəfindən hazırlanan "Azərbaycanın demoqrafiq göstəriciləri", "Azərbaycanda uşaqlar", "Azərbaycan gəncləri", "Azərbaycanda qadınlar və kişilər" adlı illik statistik məcmuələr və "Azərbaycanın əhalisi" adlı statistik bülleten vasitəsilə təqdim olunur.

Tiraj:

Azərbaycanın demoqrafik göstəriciləri – 250 nüsxə;

Azərbaycanda uşaqlar – 150 nüsxə;

Azərbaycan gəncləri – 140 nüsxə;

Azərbaycanda qadınlar və kişilər – 150 nüsxə;

Azərbaycanın əhalisi – 240 nüsxə.

***BA2.Onlayn məlumat bazasına girişlərin sayı***

İstifadəçilərin ən çox nəzərdən keçirdiyi statistik bölmələr arasında əhali statistikası ən çox ziyarət edilən bölmədir, http://www.stat.gov.az/link_click_counter/ -də əhali statistikası məhsulundan istifadəçilərin istifadə %-ləri daimi əks etdirilir.

**İstifadəçilərin ən çox nəzərdən keçirdiyi statistik bölmələr**

(29.04.2013-cü il vəziyyətinə)

| | Nəfər | Faiz |
|---|---|---|
| Nəzərdən keçirilmişdir – cəmi | **12618** | **100** |
| *onlardan:* | | |
| Əhali statistikası | 1848 | 14,6 |
| Gender statistikası | 163 | 1,3 |

## 6. Uyğunluq (əlaqələndirmə) və müqayisəlilik

Əhalinin sayının cari hesablanması bütün ölkələr üçün eyni olan ümumi nəzəriyyə, yəni əhalinin son siyahıyaalınmasının yekunları əsasında aparılır. Hər il bu ərazidə doğulanların və buraya gələnlərin sayı əhalinin sayına artırılır və ölənlərin və buradan köçənlərin sayı əhalinin sayından çıxılır. Növbəti siyahıyaalınmanın yekunlarına əsasən əvvəlki siyahıyaalınmalararası dövrdə əhalinin sayı dəqiqləşdirilir. Əhalinin sayından bir çox göstərici alındığı üçün (şəhər, kənd, cins, yaş, doğulan, ölən və s.) hər biri üçün ayrı dinamika aparılır.

***UM1. Verilmiş dinamika sırasının uzunluğu***

*Cədvəl № 5*

| Dinamikası aparılan göstəricinin adı | Dinamikanın aparılmağa başlandığı il |
|---|---|
| Şəhər və kənd yerləri üzrə əhalinin sayı | 1928-ci il |
| Yaş qrupları üzrə əhalinin sayı | 1970-ci il |
| Ümumi artım | 1928-ci il |
| Cins üzrə əhalinin sayı | 1959-cu il |
| Hər 1000 kişiyə düşən qadınların sayı | 1959-cu il |
| Şəhər və kənd yerləri üzrə doğulanların sayı | 1935-ci il |
| Şəhər və kənd yerləri üzrə ananın yaşına görə diri doğulanların sayı | 1970-ci il |
| Rəsmi qeydə alınmış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı | 1970-ci il |
| Rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulan uşaqların sayı | 1970-ci il |

| Dinamikası aparılan göstəricinin adı | Dinamikanın aparılmağa başlandığı il |
|---|---|
| Uşaq doğmuş anaların orta yaşı | 1980-ci il |
| Ümumi nəsilvermə əmsalı | 1970-ci il |
| Doğulanda gözlənilər ömür uzunluğu | 1970-ci il |
| Şəhər və kənd yerləri üzrə əhalinin təkrar istehsalının əmsalları (Netto və Brutto) | 1970-ci il |
| Şəhər və kənd yerləri üzrə ölənlərin sayı | 1935-ci il |
| Şəhər və kənd yerləri üzrə 1 yaşadək ölən körpələrin sayı | 1935-ci il |
| Şəhər və kənd yerləri üzrə hər 1 000 diri doğulana 1 yaşadək ölənlərin sayı | 1935-ci il |
| Şəhər və kənd yerləri üzrə 5 yaşadək ölən körpələrin sayı | 1970-ci il |
| Səbəblər üzrə ölüm | 1970-ci il |
| Ana ölümü | 1990-cı il |
| Nikaha daxil olanlar | 1935-ci il |
| Boşananlar | 1935-ci il |

## 7. Çıxış keyfiyyət komponentləri arasında seçim

Şöbə əhalinin cari hesablanması zamanı bütün keyfiyyət aspektlərinin ayrı-ayrılıqda yaxşılaşdırılması üçün mümkün imkanlardan istifadə edir və bu sahədə müsbət nəticələrin alınması istiqamətində işlərini davam etdirir. Belə ki, aktuallıq aspekti üzrə məlumatların yığımı, emalı və yayılması zamanı operativlik hər zaman gözlənilir. Vaxtlı-vaxtında olma aspekti üzrə hər ilin əvvəlində göstəricilərin yayımlanması barədə təqvim hazırlanaraq Komitənin veb-səhifəsində yerləşdirilir. Təqvimə uyğun olaraq göstəricilər haqqında məlumatlar əhali bölməsi üzrə mütəmadi olaraq veb-səhifədə əks olunur.

## 8. İstifadəçi tələbatlarının və qavramalarının qiymətləndirilməsi

Şöbə tərəfindən istifadəçilərlə hər il mütəmadi olaraq görüş keçirilir. Görüşdə istifadəçilərin tələbatlarının ödənilməsi məqsədi ilə onlar tərəfindən verilən təkliflər mümkün qədər nəzərə alınır, tələbatın ödənilməsi istiqamətində növbəti illərdə şöbə öz işini qurur. Sonuncu dəfə 2010-cu ildə istifadəçilər arasında DSK-nın

Məlumatların yayılması şöbəsi tərəfindən sorğu keçirilib və respondentlərin 78,7 faizi əhali statistikasına tam, 19,6 faizi isə qismən inandıqlarını bildirmişlər.

## 9. İqtisadi səmərəlilik və respondentlərə düşən yük

Rəsmi statistikanın keyfiyyətliliyini və ictimaiyyətin statistikaya inamını təmin etmək üçün bu sahədə proqramların həyata keçirilməsi üzrə işlərin təşkili və aparılması statistika məlumatlarının düzgünlük, obyektivlik, müasir şəraitə uyğunluq, məxfilik və şəffaflıq prinsipinə əsaslanır.

Şöbə mütəmadi olaraq hər il əhali və gender statistikası üzrə bütün hesabatların tərkibinə yenidən baxır. Belə ki, 2012-ci ildə "Ev təsərrüfatlarında doğum və uşaq ölümü hallarının qeydiyyatı haqqında" 1-DÖQ nömrəli rəsmi statistika müşahidəsi forması, "Əhalinin sayı, təbii və miqrasiya hərəkəti haqqında" 1-STM nömrəli və "Əhalinin miqrasiyası haqqında" 1-miqrasiya nömrəli rəsmi statistika hesabatı formaları respondentlərə düşən informasiya yükünün azaldılması məqsədilə Dövlət Statistika Komitəsinin 27 iyun 2012-ci il tarixli qərarı ilə ləğv edilmiş və 1-STM nömrəli rəsmi statistika hesabatı formasına yenidən baxılaraq bir sıra dəyişikliklər edilmiş və statistik cədvəl şəklində təsdiq edilmişdir.

## 10. Məxfilik, şəffaflıq və təhlükəsizlik

Azərbaycan Respublikasının "Rəsmi statistika haqqında" Qanununa əsasən rəsmi statistikanın aparılması üçün yığılan, işlənən və məlumatlar bazasına daxil edilən, birbaşa və ya dolayı yolla statistik vahidlərin tanınmasına və beləliklə də, ilkin məlumatların əldə edilməsinə imkan verən hüquqi və fiziki şəxslərin ilkin statistik məlumatları konfidensial sayılır və statistik sirdir və hamı uçun açıq, yəni ümumiləşdirilmiş yekun məlumatlar məxfi sayılmır (maddə 16). Bu baxımdan da şöbə ilkin məlumatların məxfiliyinin qorunmasını daim izləyir və bu sahədə lazımi tədbirlər görür.

Məlumatların istifadəçilər tərəfindən əldə edilməsi Azərbaycan Respublikasının "İnformasiya əldə etmək haqqında" Qanunun tələblərinə uyğun aparılır.

## 11. Yekun

Doğum və ölüm qeydiyyatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə

Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında qlobal informasiya şəbəkəsinin yaradılması işləri yekunlaşmaq üzrədir. Əhali ilə bağlı göstəricilərin daha dəqiq və mükəmməl aparılması məqsədi ilə gələcəkdə bu sahənin proqramlaşdırılması və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi məqsədəuyğun hesab edilir.